# CƏLİLABAD: AQRAR SAHƏNİN UĞURLARI

**Yayın qızmar günləri başlanır. Sanki təbiətin görüntülərinə uyğun olaraq Cəlilabadda həyat və əmək qaynayır, hamı bir nəfər kimi iş başındadır. Rayonun kənd təsərrüfatı əməkçiləri həmişə olduğu kimi, 2016-cı ilin bu yay aylarında da yeni qüvvə və ruh yüksəkliyi ilə yaşayır və işləyirlər. Rayonda kənd təsərrüfatını daha da inkişaf etdirmək, məhsul istehsalını artırmaq, ərzaq təhlükəsizliyini təmin etmək sahəsində layihələr yüksək səviyyədə həyata keçirilir. Yeni-yeni əmək göstəriciləri əldə edən kənd sakinlərinin fəaliyyəti haqqında ürəkdolusu söz açan rayon kənd təsərrüfatı idarəsinin rəisi Rahib Kərimov əməkdaşımızla söhbətində bu barədə demişdir:**

- Ölkə başçısı cənab İlham Əliyev son illərdə ölkəmizin iqtisadi-sosial inkişafında irəliyə atılmış addımları dəfələrlə yüksək qiymətləndirmiş, möhtəşəm layihələrin əzmlə gerçəkləşdirildiyini, infrastruktur quruculuğun geniş vüsət aldığını, əhalinin ehtiyaclarının getdikcə daha dolğun ödənildiyini qeyd etmişdir. Hər şeydən göründüyü kimi, müstəqil Azərbaycan respublikası ümummilli lider Heydər Əliyevin göstərdiyi yolla uğurla irəliləyir.

Cəlilabad rayonunun kənd əməkçiləri də torpağın qədrini bilirlər, onu əsas dolanışıq sahəsi kimi qəbul edirlər. Bu, ata-babadan yadigar qalmış ənənə kimi indi də yaşadılır, inkişaf etdirilir. Ölkəmizin son illərdə əldə etdiyi uğurlarda cəlilabadlıların da öz payı vardır. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarından irəli gələn vəzifələr rayonda ardıcıl surətdə yerinə yetirilmiş, xeyli əmək qələbəsinə imza atılmışdır. Son vaxtlar burada bütün sahələr intensiv surətdə inkişaf etdirilmiş, tikinti-abadlıq işlərinə xüsusi fikir verilmiş, yaşayış məntəqələri öz simasını əsaslı şəkildə dəyişmiş, vətəndaşların həyat səviyyəsi xeyli yüksəlmişdir.

Bu il təsərrüfat işçilərinin əmək coşqunluğu olduqca yüksəkdir. Bunun əsas səbəblərindən biri odur ki, Vətənimiz son vaxtlar böyük nailiyyətlərə, dünya miqyasında çoxlarını heyrətə salan nailiyyətlərə imza atmışdır. Qlobal layihələr, insanların rifah halının daha da yüksəldilməsinə yönəldilmiş tədbirlər ardıcıl olaraq yüksələn xətlə həyata keçirilir. Prezident cənab İlham Əliyevin kənd zəhmətkeşlərinin əməyinə verdiyi yüksək qiymət adamların əmək və yaradıcılıq əzmini artıran əsas cəhətlərdir. Rayonda 144143 hektardan artıq torpaq sahəsi mövcuddur, onlardan səmərəli istifadə nəticəsində əhalinin ərzaq təminatı yaxşılaşmış, məhsul istehsalı ötən ilin müvafiq dövründəkinə nisbətən xeyli artmışdır. Qəbul edilmiş Dövlət proqramlarına uyğun əsas diqqət taxıl məhsulları istehsalının artırılmasına yönəldilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamları ilə ərzaqlıq taxıl istehsalçılarına edilən yardımlar, bu yardımların miqdarının getdikcə artırılması, torpaq mülkiyyətçilərinə yanacaq, gübrə, toxumluq taxıl almaq üçün güzəştlərin müəyyən edilməsi, ümumiyyətlə, dövlətin, istehsal xərclərinin, demək olar ki, yarısını öz üzərinə götürməsi kənd əməkçilərinin əhval-ruhiyyəsini qat-qat yüksəltmişdir.

Son vaxtlar rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar bölmənin bütün sahələrində uğurlar qazanılmışdır. Təsərrüfatlarda 1500 hektar məhsuldar üzümlük vardır ki, bundan hər il yüksək keyfiyyətli üzüm götürülür, 347 hektar pambıq becərilir. Bundan başqa, kənd əməkçiləri tərəfindən kartof, tərəvəz, bostan məhsulları, günəbaxan, meyvə sahələrinə qulluq edilir. Heyvandarlıq təsərrüfatlarında mal-qaranın sayı sürətlə artmış, məhsul istehsalında ciddi irəliləyiş müşahidə edilir. Əldə edilmiş məhsulların böyük bir hissəsi yerli bazarlarda istehsalçıların özləri tərəfindən reallaşdırılmış, Bakı şəhərində təşkil olunmuş yarmarkaya da satış üçün müxtəlif kənd təsərrüfatı məhsuları göndərilmişdir.

Taxılçılıq həmişə olduğu kimi, ənənəvi sahə olaraq qalır. Prezident İlham Əliyevin sərəncamları ilə ərzaqlıq taxıl istehsalçılarına edilən yardımlar, bu yardımların miqdarının getdikcə artırılması, torpaq mülkiyyətçilərinə yanacaq, gübrə, toxumluq taxıl almaq üçün güzəştlərin müəyyən edilməsi, ümumiyyətlə dövlətin istehsal xərclərinin yarıdan çoxunu öz üzərinə götürməsi kənd adamlarının əhval-ruhiyyəsini qat-qat yüksəltmişdir. Ötən ilin payız səpinində fermerlər tərəfindən 56811 hektar sahədə dənli və paxlalı bitkilər əkilmişdir ki, bunların da əsas hissəsi buğda, arpa, mərci, vələmir əkinlərindən ibarətdir. Hazırda taxıl biçini davam etdirilir.

Rayonda toxumçuluğu inkişaf etdirmək sahəsində xeyli tədbir həyata keçirilmiş, yeni özəl toxumçuluq təsərrüfatları yaradılmışdır, digər təsərrüfatlarda da toxum istehsalını təşkil etmək üçün tədbirlər görülür. Növbəti illərdə fermerlər yalnız rayonun təsərrüfatlarında istehsal edilmiş yüksək reproduksiyalı toxumluq materiallardan istifadə edəcəklər, kənardan taxıl toxumu gətirməyə ehtiyac qalmayacaq.

Təsərrüfatlara texniki xidməti gücləndirmək məqsədilə “Aqrolizinq” ASC-nin rayondakı Aqroservis filialı tam gücü ilə işləyir. Bu müəssisə tərəfindən kənd əməkçilərinə güzəştli şərtlərlə kifayət qədər mineral gübrələr satılmışdır. Müəssisədə səyyar texniki xidmətə üstünlük verilir. Bu məqsədlə təmir və qaynaq işçilərindən ibarət briqadalar fermerlərin hər bir çağırışına getməyə, istənilən vaxt, istənilən sahədə xidmət göstərməyə hazırdırlar. Ümumiyyətlə, müəssisənin qapıları torpaq mülkiyyətçilərinin üzünə daim açıqdır. Fermerlərin arzu etdikləri hər hansı texnikanın onlara verilməsində heç bir məhdudiyyət yoxdur və bu sifarişlər “Aqrolizinq”in qüvvəsi daxilindədir. Torpaqların məhsuldarlığını artırmaq üçün meliorasiya və suvarma tədbirləri genişləndirilir, suvarma kanalları, kollektor-dren sistemi lildən təmizlənir, hidrotexniki qurğu və nasos aqreqatları əsaslı və cari təmir edilir.

Rayonun kənd əməkçiləri ölkə rəhbərliyinin aqrar sahə qarşısında qoyduğu vəzifələrin mahiyyətini yaxşı başa düşür, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına hər gün yeni töhfələr verirlər. Əkin-biçin adamları bu günlər yalnız yenilik hissi ilə yaşayıb-yaradır, ölkə rəhbərliyinin aqrar sahə qarşısında qoyduğu vəzifələrin mahiyyətini yaxşı başa düşür, ərzaq təhlükəsizliyinin təmin olunmasına hər gün yeni töhfələr verirlər. İnsan üçün bundan böyük fəxarət və sevinc yoxdur. Əminik ki, onlar dövlətimizin və onun başçısının müəyyən etdiyi vəzifələrə cavab olaraq öz sözlərini qarşıdakı illərdə daha böyük əmək coşqunluğu ilə deyəcəklər.

**Asim MUSTAFAYEV,**
**“Respublika”.**